**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№360/4** **29 noyabr 2023-cü il**

**“Haqsız rəqabətə qarşı mübarizə üzrə metodik materiallar toplusu"nun nəşri barədə**

Auditor fəaliyyətində haqsız rəqabətin aradan qaldırılması, göstərilən auditor xidmətlərinin keyfiyyətinin və müstəqil auditə ictimai etimadın yüksəldilməsi, habelə auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə hazırlanmış “Haqsız rəqabətə qarşı mübarizə üzrə metodik materiallar toplusu”nun layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Haqsız rəqabətə qarşı mübarizə üzrə metodik materiallar toplusu” bəyənilsin və 300 nüsxədə nəşri məqsədəmüvafiq hesab edilsin (əlavə olunur).

2. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, “Haqsız rəqabətə qarşı mübarizə üzrə metodik materiallar toplusu”nun xidməti məqsədlərlə istifadə olunması və auditin təşkili, təbliği və təşviqi məqsədilə müvafiq dövlət qurumlarına, Auditorlar Palatasının üzvlərinə, Palatanın struktur bölmələrinə və Palatanın Şurası yanında Komitələrə və Komissiyalara çatdırılması təmin edilsin (siyahı üzrə).

3. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) və Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Q.Əhmədov) tapşırılsın tapşırılsın ki:

3.1. 2024-cü ilin I rübündə Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə dair sorğunun keçirilməsi və nəticələrinin emal edilərək Palatanın rəhbərliyinə təqdim olunması təmin edilsin;

3.2. Auditorlar Palatasının üzvləri tərəfindən minimum hədlərə əməl edilməməsinin səbəbləri daxil olmuş izahatlar əsasında təhlil olunsun və bu barədə Palatanın rəhbərliyinə arayış təqdim edilsin.

4. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, bir ay müddətində Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl edilməməsinə və haqsız rəqabətə qarşı mübarizəyə dair intizam tədbirlərinin gücləndirilməsinə dair təkliflərini hazırlayıb təqdim etsin.

5. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) və Maliyyə və texniki təminat idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bu qərarın 1-ci bəndindən irəli gələn məsələlər həll edilsin.

6. Bu qərarın və “Haqsız rəqabətə qarşı mübarizə üzrə metodik materiallar toplusu”nun mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**